# ZƏHMƏTİN VƏ İNTİZAMIN VƏHDƏTİ
## (Zemfira Abdullayeva - 70)

*Minarə DADAŞOVA*

*Həyatın cövhəri yalnız əməkdir,*
*Zəhmətsiz bir insan nəyə gərəkdir?*
***N.Gəncəvi***

Zəhmətə bağlı, əməksevər, yaradıcı insanlara daima qəlbimdə xüsusi bir hörmət hiss etmişəm.

Mürəkkəb zaman kəsiyində, insan münasibətlərinin mürəkkəbləşdiyi, elm və texnikanın sürətlə inkişaf etdiyi indiki şəraitdə insan şəxsiyyətinə, onun fərdi xüsusiyyətlərinə, əməkdə, elmdə qazandığı nailiyyətlərə xüsusi diqqət verilməlidir. Çünki cəmiyyətin tərəqqisi və inkişafı üçün müəyyən işlər görmüş hər bir şəxsin həyatı maraqlı və mənalıdır.

Həyatının mənasını yaratmaqda, qurmaqda görən, sənətini, peşəsini sevən insanlardan biri də sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor, "Humay" mükafatı laureatı Zemfira Kəlpəli qızı Abdullayevadır.

Bu yubiley ərəfəsində qırx ildən çox birlikdə çalışdığım, hər gün ünsiyyətdə olduğum, sənət uğurlarına bələd olduğum əməkdaşın haqqında yazmaq mənə nəsib oldu. Bu illər ərzində mən onun müəllimlik istedadının və öz üzərində işləmək bacarığının şahidi olmuşam.

Deyirlər ki, əgər müəllim öyrətdiyi fənni yaxşı bilirsə, o, əsl müəllim deyil. Əgər o, öyrətdiyi fənni yaxşı bilirsə və eyni zamanda, o fənni sevirsə, o, yenə də əsl müəllim deyil. Əgər həmin müəllim bütün bu şərtlərlə birlikdə dərs dediyi şagirdləri sevirsə, o, əsl müəllimdir (L.N.Tolstoy).

Zemfira xanım məhz belə müəllimlərdəndir. O, tələbkar, prinsipial və ciddi müəllim olmaqla yanaşı, eyni zamanda, yetişdirmələrinə qarşı çox diqqətli və qəlbən bağlıdı.

Uzun illər dərs dediyi tələbələr onunla daima ünsiyyətdədirlər, müəllimlərinin məsləhətinə ehtiyac duyulur, onunla paylaşırlar və yaranan problemlərini onunla bölüşürlər.

Bəlkə də, Zemfira xanımın bu cürə müəllim olmağında uşaqlıq həyatında baş vermiş hadisədən irəli gəlir.

Özünün dediyinə görə musiqi məktəbindəki müəllimin hörmətsiz davrandığına görə balaca Zemfiranın qəlbində etiraz hissi oyanır və o, musiqi məktəbini atmaq qərarına gəlir. Lakin, xoş təsadüf nəticəsində, günlərin bir günündə məktəbə Polad Bülbül oğlu gəlir və onun maraqlı, cəlbedici çıxışından sonra Zemfira musiqi təhsilini davam etdirmək qərarına gəlir.

İnsan həyatında təsadüfi hadisələrin, görüşlərin bəzən həlledici rolu olur. Gənc Zemfiranın də sənət yolunun istiqamətlənməsində belə bir təsadüf səbəb həlledici rol oynadı.



Beləliklə, Zemfira xanım öz musiqi təhsilini A.Zeynallı adına musiqi texnikumunda davam etdirir və oranı fərqlənmə ilə bitirdikdən sonra təhsilini Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano sinfində davam etdirir.

1975-ci ildə konservatoriyanı solo ifaçı, musiqi müəllimi, kamera ansamblının solisti və konsertmeyster ixtisasları üzrə bitirdikdən sonra Bakı şəhəri 8 saylı uşaq musiqi məktəbində müəllim, 1980-ci ildən indiyə kimi Azərbaycan Dövlət Pedaqoji Universitetində işləyir.

Qeyd etmək lazımdır ki, 1980-ci ildə professor Sabir Quliyevin təşəbbüsü ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indi Universitet) pedaqoji fakültənin nəzdində musiqi və onun tədrisi metodikası kafedrası açılır. Zemfira xanım həmin kafedrada işləmək üçün dəvət alır.

O, 1980-cı ildə konsertmeyster, 1982-ci ildə kafedranın müəllimi, 1988-ci ildə baş müəllim, 1994-cü ildə dosent, 2009-cu ildə professor, 2017-ci ildən "Musiqi və onun tədrisi texnologiyası" kafedrasının müdiri vəzifəsində çalışır.

Sadaladığım illər ərzində istedadlı müəllim olmaqla yanaşı elmi-yaradıcılıq sahəsində də daim aktiv işləyir.

Səmərəli əməyi nəticəsində bir çox elmi əsərlərin müəllifi kimi çıxış edir. O, musiqi pedaqogikası, sənətşünaslıq, musiqi ifaçılığına həsr olunmuş çoxsaylı elmi və metodik əsərlərin müəllifidir.

1988-ci ildə "Azərbaycan xalq mahnı və rəqslərinin notlaşdırılması və fortepiano üçün işləmələri" mövzusunda namizədlik dissertasiyasını Tiflis şəhərində müdafiə edir.

Bu yerdə bir misranı xatırlamaq istərdim - "Yaxşı müəllimdən dərs alan hər kəs, həyatda heç zaman büdrəyə bilməz"

Sözlərimin təsdiqi kimi Zemfira xanımın öz müəllimlərinə olan hörmətini və münasibətini onun dilindən eşitmişəm - "Xoşbəxtəm ki, həyatım boyu mənim yaxşı müəllimlərim olub".

Həmin müəlimlərnən ömür boyu dostluq edən Zemfira xanım -hətta musiqi tarixi və nəzəriyyəsi sahəsində birgə proyektlərin üzərində çalışıb və onların reallaşdırılmasına nail olub.

Belə ki, mərhum professor Solmaz xanım Qasımova ilə birlikdə azərbaycanın dahi bəstəkarları Tofiq Quliyev (1995) və Fikrət Əmirovun (2003) həyat və yaradıcılığı haqqında kitablar yazılıb nəşr olunublar.

Maraqlı bir faktı qələmə almaq istərdim. Tofiq Quliyev haqqında kitab çapdan çıxandan sonra, bəstəkar həmin kitaba öz münasibətini bildirərək deyir ki, "Kitab peşəyönümlüdür, mən isə istərdim ki, o populyar olsun, geniş oxuyucu kütləsi onu oxuya bilsin". Zemfira xanım bu sözləri yadında saxlayır.

Beş il sonra T.Quliyev dünyasını dəyişir. Bəstəkarın anadan olmasının 90-illiyinə, 2007-ci ildə gözlənilmədən, Mədəniyyət Nazirliyi tərəfindən maestro haqqında yeni kitabın yazılması sifariş olunur.

Zemfira xanıma icazə verilir bəstəkarın kabinetində arxiv materialları ilə tanış olsun.

T.Quliyevin qızı Lalə xanım deyirdi ki, bu fürsət yalnız Zemfira xanıma nəsib olub.

Həmkarım böyük ehtiramla və hörmətlə arxiv meteriallarıı ilə tanış olur, diqqətlə, qayğı ilə seçim aparır və bəstəkarın arzusunu nəzərə alaraq monoqrafiyanı yazıb nəşr etdirir.

Zemfira xanım 2008-ci ildə "Tofiq Quliyev" monoqrafiyasına görə prezidentin Fərmanlarına əsasən "Humay" mükafatına layiq görülür.

Həmin ildə rejissor Eldar Quliyevin Tofiq Quliyevə həsr olunmuş sənədli filmdə çəkilir və bəstəkar haqqında xatirələrini bölüşür. Zemfira xanım Tofiq Quliyevin internet saytını hazırlayan müəlliflərdən biridir. Saytda bəstəkarın həyat və yaradıcılığı haqqında azərbaycan, rus və ingilis dillərində mühazirələri yer almışdır.

2017-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Tofiq Quliyevin 100 illik yebileyi münasibətilə hazırlanmış beş cilddən ibarət multi media layihəsində iştirak edib, "Mahnılarda döyünən ürək" monoqrafiyasının müəllifidir.

Yeri gəlmişkən demək lazımdır ki, T.Quliyev və F.Əmirov haqqında yazılan kitablar azərbaycan mədəniyyətinin və incəsənətinin təbliği məqsədilə "7 gün" və "Avropa-TV" teleproqramlarının aparıcısı Günay Aqriya Hollandiyaya, eləcə də, Avstraliya, Almaniya və ABŞ-a təqdim olunmuşdur.

2009-cu ildə Zemfira xanımın həyatında bir təqdirəlayiq hadisə də baş verir. Bəstəkar və skripkaçı, birinci yapon operasının müəllifi, Türkiyənin Adana şəhərindəki Universitetində simli alətlər kafedrasına rəhbərlik edən Fərxəng Hüseynova həsr olunmuş kitabı nəşr etdirir.

Səmərəli kitabların nəşrilə paralel Zemfira xanım işlədiyi kafedrada bir sıra fənn proqramların, dərsliklərin, dərs vəsaitlərinin müəllifidir. Onun qələmindən "Musiqi alətləri" (2008), "Azərbaycan musiqi ədəbiyyatı" (2010), "Azərbaycan xalq musiqi yaradıcılığı" (2011), "Azərbaycan xalq melodiyaları" (1992), "Fortepianoda çalmaq üçün dərs vəsaiti" (həmmüəllif prof. M.R.Dadaşova 1998, 2007), 10 fənn proqramı işıq üzü görmüşdür.

Ümumiyyətlə Z.Abdullayeva 6 monoqrafiya, 6 dərslik, 3 dərs vəsaiti, 60-dan çox elmi məqalənin müəllifidir.

Pedaqoji işlə yanaşı Z.Abdullayeva elmi-metodik fəaliyyətlə də məşğuldu.

Bu illər ərzində o, bir sıra dissertasiyaların opponenti, Bakı Musiqi Akademiyasının Müdafiə Şurasının üzvü olub.

2010-cu, 2011-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının qərarı ilə "ilin müəllimi" müsabiqələrinin qalibi olmuşdur.

2010-cu ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı, 2011-ci ildə "Təhsil əlaçısı" döş nişanı ilə təltif olunmuşdur.

Zemfira xanım ictimai işlərə də vaxt tapır və daim bu sahədə fəal iştirak edir.

Sual oluna bilər ki, bu işlərin öhdəsindən ailəli qadın, üç övladın anası, altı nəvənin nənəsi, həyat yoldaşı, necə gəlir?

Sualın cavabı üzdədir - zəhmətdə və intizamlı olmaqda. 1988-ci ildə Tiflis şəhərində namizədlik dissertasiyasını müdafiə edərkən onun opponenti, filologiya elmləri doktoru V.Qvaxariya çıxışında xüsusi qeyd etmişdir: "Sevindiricidir ki, ilk dəfə olaraq bizim institutda üç uşaq anası müdafiə edir".

Elə bu faktın özüdə Zemfira xanımın nə dərəcədə intizamlı olduğunun göstəricidir.

Müsahibələrin birində özü etiraf edib demişdir: "Mən tələbkar və ciddi müəlliməm. Mənim sinfimdə yalnız zəhmətsevən tələbələr oxuyur. Onları sinfimə qəbul edərkən əvvəlcədən iş rejimi barədə ətraflı məlumat verirəm və xəbərdarlıq edirəm, - dərsə səhlənkar yanaşan tələbələrə heç bir güzəştə getməyəcəm".

Professor Zemfira Abdullayevanın elmi, pedaqoji, musiqi-ictimai fəaliyyət sahələrində qazandığı nailiyyətlər heç də asanlıqla başa gəlməmiş, zəhmətin və intizamın birliyindən hasil olmuşdur.

Əzizimiz Zemfira xanım! Siz şərəfli həyat yolu keçmiş, zəhmətkeş pedaqoq və elm xadimisiniz! Sizin pedaqoji və elmi-yaradıcı fəaliyyətiniz daim gələcəyə istiqamətlənir. Musiqi elminin perspektivlərinə ünvanlanır.

Sizi yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, uzum ömür, möhkəm can sağlığı, ailə xoşbəxtliyi və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

Ürəyinizdən keçən bütün arzulara qovuşmaq və daha böyük yaradıcılıq qələbələrinizi görmək istərdik.